**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**AĞASİYEVA KƏMALƏ YAQUB qızı**

# AZƏRBAYCAN RESPUBLİKASININ KİÇİK MÜƏSSİSƏLƏRİNDƏ BEYNƏLXALQ AUDİT STANDARTLARININ TƏTBİQİ

**İxtisas: 5303.01 – "Mühasibat uçotu"**

iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2018**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
Novruzov Vahid Tapdıq oğlu

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
Namazova Cəmilə Bayramalı qızı

iqtisad üzrə fəlsəfə doktoru, dosent
Məmmədov Yaşar Əzimağa oğlu

**Aparıcı təşkilat:** Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrası

Müdafiə "___" ______________ 2018-ci il tarixdə saat ____-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.018 Birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" ______________ 2018-ci ildə göndərilmişdir.

**FD. 02.018 Birləşdirilmiş dissertasiya**
**şurasının elmi katibi, i.ü.f.d., dosent:** **H.S.Şamilova**

# TƏDQİQAT İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikasında audit işi iqtisadiyyatımızla həmahəng surətdə inkişaf etməkdədir. Audit işi iqtisadiyyatımızda şəffaflığı və eyni zamanda ölkə miqyasında korrupsiya ilə mübarizəni daha mütərəqqi formada təmin etmək baxımından əhəmiyyətli olduğu üçün bu sahənin iqtisadiyyatın ümumi tempindən geri qalmamaqla inkişaf etdirilməsi günümüzün zərurətinə çevrilmişdir. Eyni zamanda qeyd olunmalıdır ki, audit işinin inkişafı təkcə milli iqtisadiyyat çərçivəsində şəffaflığın təmin olunmasına deyil, eləcə də beynəlxalq səviyyədə korrupsiyalaşmanın, maliyyə fırıldaqçılığının qarşısının alınmasına, daxili və kənar informasiya istifadəçilərinin dəqiq, etibarlı maliyyə məlumatlarına çıxışının təmin olunmasına aparan əsas yoldur. Audit vasitəsilə müəssisələr səviyyəsində əldə olunmuş etibarlı maliyyə məlumatları isə gələcəkdə düzgün biznes qərarlarının qəbul edilməsinə, həmin müəssisələrin inkişafına şərait yaradır ki, bu da ümumilikdə milli iqtisadiyyatın tərəqqisinin əsasını təşkil edir. Bütün sahələrdə dünya iqtisadiyyatı ilə sıx inteqrasiya münasibətlərini prioritet seçmiş milli iqtisadiyyatımız audit sahəsində də öz milli sərhədlərində Beynəlxalq Audit Standartlarına daha önəmli yer verməli, onların tətbiqində maraqlı olmaqla, ölkədaxili hesabatlılıq sənədləri ölkə xaricində də etibarlı hesab edilərək investorların ölkəmizə marağının güclənməsinə şərait yaratmaq imkanına malik olmalıdır. Bu addım isə daxili iqtisadi proseslərin sürətini artırmaq üçün olduqca zəruridir. Bütün bunlarla yanaşı onu da nəzərə almalıyıq ki, audit xidmətləri bazarının genişləndirilməsi, təsərrüfat subyektlərinin və auditorların maraqlarının müdafiəsi, audit sahəsində hüquqi-normativ aktların beynəlxalq təcrübəyə əsasən təkmilləşdirilməsi, audit xidmətlərinin Beynəlxalq Audit Standartlarının (BAS) tələblərinə uyğun olaraq göstərilməsi, həmçinin ölkənin iqtisadi həyatında auditin rolunun və mahiyyətinin gücləndirilməsi, auditin və auditor hesabatlarının rolunun artmasının təmin edilməsi geniş anlamda makroiqtisadi göstəricilərin də müsbətə doğru dəyişməsinə gətirib çıxarır.

Audit işi Azərbaycan dövlətinin memarı və banisi olan Heydər Əliyev tərəfindən imzalanan Azərbaycan Respublikasının 16 sentyabr 1994-cü il tarixli "Auditor xidməti haqqında" Qanununa əsasən təşkil olunmuşdur. Bu qanuna əsasən Azərbaycan Respublikasının Milli Məclisinin 19 sentyabr 1995-ci il tarixli Qərarı ilə təsdiq olunmuş

“Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnamə təsdiq edilmişdir və müvafiq olaraq, 5 aprel 1996-cı il tarixində Auditorlar Palatası öz fəaliyyətinə başlamışdır.

Audit sisteminin islahatı Prezidentin 29 dekabr 1998-ci il tarixli “Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında” Fərmanı ilə başlamışdır. Bu Fərman həm də sayı ildən ilə artan kiçik müəssisələrə də şamil edilmişdir. Sözügedən fərmanın qeyd olunan müəssisələrə aid olunması, onlarda Beynəlxalq Audit Standartlarının tətbiq olunması ilə əlaqədardır.

Beynəlxalq Audit Standartlarının Azərbaycan Respublikasının iqtisadi subyektlərinin auditi zamanı tətbiq olunması milli auditin beynəlxalq iqtisadi münasibətlərə inteqrasiya olunmasına imkan yaradır. Beynəlxalq Audıt Standartları Azərbaycan Respublikasında audit funksiyalarının genişləndirilməsinə kömək etmişdir. Bu funksiyalar daxili nəzarət, risklərin idarə edilməsi, idarəetmə və hətta biznes modeli kimi sahələrdə yoxlama və biznes yanaşması üzrə rəsmi rəyin verilməsindən ibarətdir.

Vergilərin ödəmə səviyyəsinin artması Azərbaycan Respublikasında biznes aparılmasının şəffaflığını təmin edən Beynəlxalq Audit Standartlarının bilavasitə və ya dolayı yolla səmərəliliyini bildirir.

Beynəlxalq Audit Standartlarının Azərbaycan Respublikasının kiçik müəssisələrində tətbiq olunması bütün dünyada şirkətlərlə investorlar arasında inamın artmasına imkan verəcək, bu da öz növbəsində ölkəyə əlavə maliyyə investisiyalarının axınını təmin edəcək.

Qeyd edilənlərə baxmayaraq, son zamanların araşdırmaları göstərir ki, Azərbaycan Respublikasında müstəqil audit son dərəcədə Beynəlxalq Audıt Standartlarına yaxınlaşmışdır. Lakin, tədqiqat göstərir ki, auditin inkişafı sahəsində konseptual həllini tələb edən aktual problemlər hələ də mövcuddur.

Bütün sadalananları ümumiləşdirərək qeyd etmək istərdik ki, audit işinin aparılması zamanı beynəlxalq təcrübədə iqtisadi şəffaflıqdan başlayaraq ən son mərhələdə daxili və xarici mənbələr hesabına investisiya qoyuluşlarının həcminin artması istiqamətlərini əhatə etdiyindən və bu əhatə dairəsində milli iqtisadiyyatın şaxələnməsini və inkişafını təmin etmək mümkün olduğundan, Azərbaycan Respublikasının ərazisində 2018-ci il yanvarın 1-i vəziyyətinə ölkə üzrə müəssisələrin ümumi sayının 81,5 faizini kiçik müəssisələr (əsasən ticarət, xidmət, tikinti və kənd təsərrüfatı sahələri) təşkil etdiyindən, bu

müəssisələrdə Beynəlxalq Audit Standartlarının tətbiq olunması problemlərini nəzəri, metodoloji və tətbiqi baxımdan tədqiq etmək zəruridir və bu problem dissertasiya işi səviyyəsində elmi araşdırma tələb etdiyindən işin mövzusu olduqca aktualdır.

**Problemin öyrənilmə vəziyyəti.** Auditin nəzəriyyəsi və metodologiyasının işlənib hazırlanmasında, həmçinin Beynəlxalq Audit Standartlarının işlənib hazırlanması və tətbiqində, kiçik və orta biznes müəssisələrində auditin aparılmasının təcrübədə işlənməsi və təkmilləşdirilməsinə dair öz elmi əsərləri ilə respublikada tanınmış iqtisadçılardan Z.Ə.Səmədzadə, İ.M.Abbasov, B.X.Ataşov, Q.Ə.Abbasov, D.A.Bağırov, N.M.İsmayılov, N.A.Kərimova, V.T.Novruzov, S.M.Qasımov, S.Y.Müslümov, C.B.Namazova, S.M.Səbzəliyev, Y.Ə.Məmmədov və digərlərinin böyük əməyi olmuşdur.

Beynəlxalq səviyyədə isə auditin nəzəri və praktiki mövzularını əhatə etməklə S.M.Bıçkova, O.V.Yefimova, M.L.Makalskaya, M.V.Melnik, D.A.Valiqurskiy, O.İ.Vasilçuk, İ.M.Palıy, A.A.Spiridonov, E.A.Stoyanov, A.D.Şeremet, R.Adams, A.Arens, Y.Den M.Vilyams və digər alimlərin fundamental elmi araşdırmaları mövcuddur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Azərbaycan Respublikasının kiçik müəssisələrində Beynəlxalq Audit Standartlarının tətbiqinin nəzəri baxımdan əsaslandırılmasıdır.

Qoyulmuş məqsədə nail olmaq üçün həll olunması tələb olunan əsas vəzifələr aşağıdakı kimi müəyyən edilmişdir:

- Azərbaycan Respublikasında biznesin aparılmasının şəffaflığını təmin etməkdə Beynəlxalq Audit Standartlarının rolunu və mahiyyətini tədqiq və təhlil etmək;
- Beynəlxalq Audit Standartlarının mahiyyətini, funksiyalarını və kiçik müəssisələrdə Beynəlxalq Audit Standartlarının tətbiq olunmasında beynəlxalq təcrübəni nəzərdən keçirmək;
- Beynəlxalq Audit Standartlarının Azərbaycan Respublikasının iqtisadi məkanına inteqrasiya olunması və uçot-təhlil sisteminin formalaşmasını, daxili iqtisadi və hüquqi normaların Beynəlxalq Audıt Standartlarına uyğunlaşdırılması ilə bağlı əsas problemləri müəyyən etmək;
- Azərbaycan Respublikasında mövcud olan kiçik müəssisələrdə Beynəlxalq Audit Standartlarının tətbiq olunan iqtisadi mexanizmlərini və metodologiyalarını işləyib hazırlamaq;

- beynəlxalq təcrübədən yararlanaraq Azərbaycan Respublikasının kiçik müəssisələrində Beynəlxalq Audit Standartlarının tətbiqinə dair problemlərin həll olunma yollarını aşkarlamaq;

- Beynəlxalq Audıt Standartları tətbiq olunduqda Azərbaycan Respublikasının kiçik müəssisələrinin idarə etmə perspektivlərini təhlil etmək;

- Azərbaycan Respublikasının kiçik müəssisələri səviyyəsində Beynəlxalq Audit Standartlarının tətbiqinin ənənəvi auditə bilavasitə və dolayı yolla təsirini müəyyən etmək.

**Tədqiqatın predmeti.** Azərbaycan Respublikasının iqtisadi subyektlərində, əsasən kiçik müəssisələr olmaqla, Beynəlxalq Audit Standartlarının tətbiqinə imkan yaradan üsullardır. Tədqiqat obyektlərində aparılan araşdırmalar zamanı Beynəlxalq Audit Standartlarının tətbiqini zəruri edən hallar nəzəri və metodoloji cəhətdən öyrənilmiş, beynəlxalq elmi və praktiki təcrübə ilə müqayisə olunaraq, Beynəlxalq Audit Standartlarının tətbiqinin əsas problemləri araşdırılaraq təhlil edilmişdir.

**Tədqiqatın obyekti.** Azərbaycanda fəaliyyət göstərən kiçik biznes subyektləri tədqiqatın obyektini təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsası** kimi Beynəlxalq Audit Standartlarının istifadə olunması və tətbiqi ilə bağlı problemlər üzrə klassik və müasir elmi ədəbiyyatlarda təqdim edilən əsərlərdən, beynəlxalq mətbuatda dərc olunmuş elmi məqalələrdən, investisiya şirkətlərinin və bankların rəsmi internet səhifələrindəki məlumatlar, ölkədaxili və ümumdünya təcrübəsində istifadə olunan təlimatlardan, Beynəlxalq Audit Standartlarının tətbiqi zamanı aşkarlanan problemlərə həsr olunmuş konfransların materiallarından, Azərbaycanın real iqtisadi vəziyyətini əks etdirən statistik göstəricilərindən, nəzəri və praktiki əhəmiyyət kəsb edən statistik seçmə hesablamalardan, eləcə də uçot və hesabat standartları üzrə Beynəlxalq komitənin materiallarından geniş istifadə olunmuşdur. Klassik müəlliflərin audit və hesabatlılığın prinsiplərinə həsr olunmuş elmi əsərlərinə edilmiş istinadlarla yanaşı, Maliyyə Nazirliyinin və digər dövlət orqanlarının təlimatlarından da mövzunun tədqiqi zamanı geniş istifadə edilmişdir.

Tədqiqatda müqayisə, iqtisadi-statistik təhlil, sosioloji təhlil, analitik və ümumiləşdirmə üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** xarici və yerli alimlərin əsaslı və tətbiqi işləri, audit və mühasibat uçotunun problemləri üzrə qanunverici və normativ materiallar təşkil etmişdir. Bununla yanaşı audit təşkilat-

larının, kiçik müəssisələrin, Beynəlxalq Audit Standartlarının materialları, həmçinin konfrans və seminarların materiallarından əldə edilən məlumatlar tədqiq olunmuşdur. Bundan əlavə, Azərbaycan Respublikasının hökumətinin metodik və təlimat xarakterli materialları tədqiq olunmuşdur. İşdəki bütün hüquqi və metodik əsasları Azərbaycan Respublikasında audit fəaliyyətini tənzimləyən qanunvericilik aktları təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir.

- Azərbaycan Respublikasında biznesin aparılmasının şəffaflığının təmin olunmasında Beynəlxalq Audit Standartların rolu təhlil olunmuş və onun əhəmiyyəti açıqlanmışdır;
- kiçik müəssisələrdə Beynəlxalq Audit Standartlarının tətbiqinin mahiyyəti və bununla bağlı beynəlxalq təcrübə müəyyən olunmuş və onlara əlavələr edilmişdir;
- Beynəlxalq Audit Standartlarının Azərbaycan Respublikasının iqtisadi məkanına inteqrasiya olunmasının, uçot-təhlil sisteminin yaradılmasının və daxili iqtisadi və hüquqi normaların Beynəlxalq Audit Standartlarına uyğunlaşdırılmasının əsas problemləri aşkarlanmış və sistemləşdirilmişdir;
- Azərbaycan Respublikasının kiçik müəssisələrində Beynəlxalq Audit Standartlarının tətbiq olunmasının metodologiyası və iqtisadi mexanizmi işlənib hazırlanmışdır;
- beynəlxalq təcrübəni misal gətirərək Azərbaycan Respublikasının kiçik müəssisələrində Beynəlxalq Audit Standartlarının tətbiq olunmasında mövcud olan problemlərin həll edilmə yolları göstərilmiş və onlara əlavələr edilmişdir;
- Beynəlxalq Audit Standartlarının tətbiq edildiyi təqdirdə Azərbaycan Respublikasının kiçik müəssisələrinin idarəetmə perspektivləri müəyyənləşdirilmişdir;
- Azərbaycan Respublikasının kiçik müəssisələrinin timsalında Beynəlxalq Audit Standartlarının tətbiqinin müəssisələrin perspektiv fəaliyyətinə və fəaliyyət coğrafiyasına bilavasitə və dolayı yolla təsiri müəyyənləşdirilmişdir.
- maliyyə (mühasibat) hesabatının auditində seçmə yoxlamanın həyata keçirilməsinin müvafiq proqram məhsulunun yaradılmasına əsaslanan metodun əsas müddəaları müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti** İnformasiya istifadəçiləri üçün nəzəri məsələlərin Beynəlxalq Audit Standartlarının

tətbiqi ilə hazırlanmış audit hesabatlarının geniş şəkildə öyrənilməsi, dissertasiya işinin əhəmiyyətini artırmış və tədqiqatda audit hesabatlarının ən etibarlı informasiya mənbəyinə çevrilməsi metodikası geniş açıqlanmışdır.

İşin praktik əhəmiyyəti, tədqiqatda real faktlara əsaslanan nümunələrin olması, onların nəzəriyyədən praktikaya transformasiyası zamanı ortaya çıxan problemlərin geniş tədqiq olunması və tədqiqat prosesində müəyyən edilən nöqsanların aradan qaldırılması yollarının təhlili və bu zaman müəyyən edilən müsbət və mənfi hallara dair çıxarılan nəticələr, metodoloji əsas kimi dövlət orqanları, kiçik müəssisələrin rəhbərləri, həmçinin göstərilən audit xidmətlərinin səmərəliliyini artırmaq üçün audit təşkilatlarının rəhbərliyi tərəfindən istifadə edilə bilməsindən ibarətdir.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunması.** Dissertasiya işinin əsas nəzəri və praktiki müddəaları və nəticələri respublikanın və xarici ölkələrin elmi jurnallarında və elmi-praktiki seminar və konfranslarda təqdim olunmuşdur. Dissertasiyanın əsas məzmununu əks etdirən konfrans materialları sırasında "Təşkilatlarda daxili auditin təşkili və onun beynəlxalq standartlara uyğunlaşdırılması. "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi" mövzusunda Beynəlxalq elmi-praktiki konfrans materialları, Bakı, 27-28 iyun 2012-ci il" və "II Международная научно-практическая конференция, Управленческие технологии и модели модернизационных процессов в российской экономике: история и современность, Сборник научных статей, Применение международного опыта в процессе внедрения Международных стандартов аудита на малых предприятиях Азербайджанской Республики, 10 сентября, Курск-2015" adda tezislər dərc edilmişdir.

Dissertasiyada iqtisadi cəhətdən əsaslandırılmış tövsiyə və təkliflər Azərbaycan Respublikasının Auditorlar Palatasında tətbiq olunmaq üçün qəbul edilmişdir (Arayış 01-2/03, 01 mart 2016-cı il).

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissertasiya işinin strukturu qoyulmuş məsələlərin məntiqini, tədqiq olunma qayda və həll olunma alqoritmini əks etdirir. Dissertasiya işi 160 səhifədə təqdim olunmuşdur, giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından, 7 (yeddi) şəkil və 7 (yeddi) cədvəldən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti, nəzəri metodoloji əsasları, informasiya bazası, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti şərh edilir. Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi barədə məlumat verilir.

Dissertasiya işinin birinci fəsli **"Beynəlxalq Audit Standartlarının mahiyyəti və Azərbaycan Respublikasının iqtisadi reallıqlarında onların tətbiqinin əhəmiyyəti**" adlanır. Bu fəsildə Azərbaycan Respublikasının kiçik müəssisələrində Beynəlxalq Audit Standartlarının tətbiqinin əhəmiyyəti, metodologiyası, iqtisadi mexanizmi, Beynəlxalq Audit Standartlarının tətbiqinin beynəlxalq təcrübəsi və Beynəlxalq Audit Standartlarının şəffaf biznes mühitinin təmin olunmasında rolu haqqında məsələlər əhatə edilir.

Dünya iqtisadiyyatında inteqrasiyanın dərinləşməsi, audit aparılmasının beynəlxalq standartlara dair vahid sisteminin işlənib hazırlanmasını zəruri etmişdir. Bu mənada inkişaf etmiş xarici və MDB ölkələrində audit standartlarının işlənib hazırlanması sahəsində toplanmış təcrübənin öyrənilməsi və bu təcrübənin ölkənin fəaliyyətində tətbiq edilməsinin böyük əhəmiyyəti vardır. Bu cəhəti əsas götürərək Auditor Palatasında milli audit standartları işlənib hazırlanarkən, dünya təcrübəsində sınaqdan çıxmış Beynəlxalq Audit Standartlarının aşağıdakı prinsipləri əsas götürülərək onların istifadəsi məqsədəuyğun hesab edilir:

1. Audit Beynəlxalq Audit Standartlarına müvafiq peşəkar səriştəyə malik olan şəxslər tərəfindən aparılmalıdır;
2. Auditor, fikir yürütməkdə müstəqil olmalıdır;
3. Auditor, aparacağı auditi Beynəlxalq Audit Standartlarının tələbinə uyğun düzgün və peşəkarlıqla aparmalı və obyektiv auditor rəyi tərtib etməlidir;
4. Auditor yoxlamasının aparılması üçün auditin planı və proqramı tərtib edilməlidir;
5. Auditor, özünün xüsusi fəaliyyətini planlaşdırmaq məqsədilə sifarişçinin daxili nəzarət sistemi haqqında kifayət qədər məlumata malik olmalıdır;
6. Auditor, mühasibat (maliyyə) hesabatlarının düzgünlüyü haqqında rəy vermək üçün auditor yoxlaması zamanı kifayət qədər auditor sübutları toplamalıdır;

7. Auditor, öz rəyində hesabatın uçot qaydalarına və standartlarına uyğun olub-olmamasını göstərməlidir;

8. Auditor rəyində əvvəlki hesabat dövrü ilə müqayisədə sifarişçinin uçot siyasətindəki dəyişikliyə səbəb olan şəraiti əks etdirilməlidir;

9. Auditor rəyində nöqsan göstərilmədikdə, mühasibat (maliyyə) hesabatındakı məlumatlar düzgün hesab edildikdə həmin hal yazılan rəydə qeyd edilməlidir;

10. Auditor, öz rəyində mühasibat (maliyyə) hesabatlarının düzgünlüyünə dair qeydlər etməli və ya auditor rəyinin tərtib olunmama səbəbləri göstərilməlidir.

Ümumi standartların tələblərinə görə:

1) Yoxlama, xüsusi hazırlığa və təcrübəyə malik olan auditor tərəfindən aparılmalıdır;

2) Auditor tərəfindən yerinə yetirilən işlərə aid bütün məsələlərdə həmişə müstəqillik təmin edilməlidir;

3) Hesabatların tərtibi və yoxlanılması zamanı yerinə yetirilən audit işinə diqqətlə, obyektiv və peşəkarlıqla yanaşılmalıdır.

Beynəlxalq Audit Standartlarının tətbiq edilməsi şəraitində kiçik müəssisələrin auditinin həyata keçirildiyi zaman auditor fəaliyyətinin təmin edilməsinin metodoloji problemləri istənilən dövlətdə xüsusi əhəmiyyət kəsb edir.

Kiçik müəssisələrin keyfiyyətli auditini həyata keçirmək üçün auditor, məlumatların alınması və qiymətləndirilməsini təmin edən işlənmiş metodikaya malik olmalıdır.

Kiçik müəssisələrin auditi metodologiyasında aparılan audit prosesindən alınan məlumatın kompleks, istehsal-təsərrüfat, sərmayə və maliyyə təhlili aparıldığından əsas rolu analitik funksiya oynayır.

Kiçik müəssisələrin auditinin mühüm funksiyalarından biri – hüquqi-normativ funksiya barədə birmənalı olmayan rəy mövcudluğudur.

Kiçik müəssisələrin auditinin həyata keçməsi prosesində mühasibat uçotunun aparılmasının lazımi təşkilinə, onun normativ sənədlərin tələblərinə uyğun hazırlanmasına, sahibkarın və ya rəhbərin uçotun təşkili və qurulmasında qarşıya qoyulan məsuliyyəti dərk etməsini təsdiq edən rəsmi yazılı izahatların işlənməsinə və sorğusuna böyük diqqət ayırmaq lazımdır.

Müəssisə haqqında məlumatın toplanması və qiymətləndirilməsi prosesində aşağıdakıları nəzərə almaq vacibdir:

- sadələşdirilmiş qeydiyyat qaydası, sahibkarlıq fəaliyyətini hə-

yata keçirmək hüququna lisenziya və sertifikatlar alınması xüsusiyyətləri;

- uçotun bütün növlərinin təqdim edilməsinin sadələşdirilmiş qaydası;
- kiçik müəssisələr tərəfindən müstəqil şəkildə təsərrüfat əməliyyatlarının sənədləşməsi üçün işlənib hazırlanan formaların qanunauyğunluğu (zəruri tələblərə riayət edilməsi şərti ilə) və istifadəsinin mümkünlüyü;
- kiçik sahibkarlığın maliyyə-təsərrüfat fəaliyyətinə təsir göstərən subyektlərə dövlət dəstəyi tədbirləri;
- regional və yerli qanunvericiliyin, kiçik müəssisələrin yaranmasına və fəaliyyətinə təsiri.

Təxminən 70-ə yaxın digər ölkələr (məsələn, Avstraliya, Rusiya, Hindistan, Braziliya, Hollandiya, Çexiya və s.) Beynəlxalq Audıt Standartlarından xüsusi auditor standartlarının işlənib hazırlanması üçün baza kimi istifadə edir və burada auditin yerinə yetirilməsi, milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla həyata keçirilir. Əsasən xatırlanan ölkələrdə auditor fəaliyyətinin normativlərlə tənzimlənməsində Beynəlxalq Audıt Standartlarından əhəmiyyətli şəkildə geri qalma halları baş verir.

ABŞ, Fransa, Almaniya, Böyük Britaniya kimi inkişaf etmiş ölkələr əsasən milli standartlardan istifadə etsələr də, bəzən müəyyən baxışların xüsusi standartlar vasitəsilə tənzimlənməsinin olmadığı hallarda, Beynəlxalq Audıt Standartları müddəalarını da tətbiq edirlər. Buna müvafiq olaraq, bu ölkələr üçün kiçik müəssisələrin auditi, xarakterik xüsusiyyətlər, yəni, auditin yuxarıda xatırlanan ölkələrdə həyata keçirilməsində fərqli cəhətlərin olması ilə yerinə yetirilir.

Kiçik müəssisələrin auditinə dair Əsasnamədə: əsas xarakteristikalar; auditin aparılmasında Beynəlxalq Audıt Standartların tətbiqi ilə əlaqədar olan metodiki göstərişlər, nəzərdən keçirilir; auditorun kiçik müəssisəyə xidmətlər göstərdiyi hallarda mühasibat uçotu ilə bağlı olan lazımi tövsiyələr verilir.

Kiçik və orta sahibkarlığın subyektləri üçün mühasibat uçotunun və hesabatının aşağıdakı növbəti problemləri qeydə alınır:

- investorlar və kreditorlar üçün cəlbedici hesabatın formalaşmasında yaranan çətinliklər, həmçinin çoxlu sayda kiçik müəssisələrin hesabatının formalaşmasının ilkin məqsədi;
- dövlət hakimiyyətinin vergi orqanları qarşısında hesabat;

- kiçik müəssisələr üçün xüsusi olaraq işlənib hazırlanmış mühasibat uçotunun vahid milli standartlarının, eləcə də, müvafiq metodiki tövsiyələrin və izahatların yoxluğu;

- kiçik müəssisələrin hesabatının və mühasibat uçotunun təşkili sistemlərində zəruri etibarlı və müqayisəli informasiyanın tam şəkildə təqdim edilməsi;

- maliyyə hesabatında mühasibat işçiləri tərəfindən təqdim olunan məlumatların keyfiyyətinə və düzgünlüyünə görə kiçik müəssisələrin mühasibat işçilərinin aşağı səviyyəli məsuliyyətinin artırılması.

Beynəlxalq Audit Standartlarının tətbiqi hər ayrı kiçik müəssisənin fəaliyyəti nəticəsində meydana çıxan və buraxılan bir sıra səhvləri vaxtlı-vaxtında tapmağa, eləcə də, düzəltməyə icazə verir. Buna görə də, bu cür müəssisələrin rəhbərləri üçün illik audit, hər hansı bir cərimə və sanksiyaların yoxluğunun təminatçısı, eləcə də, yalnız yüksək ixtisaslı mütəxəssislərin verdikləri tövsiyələri istisna etməklə öz əməyinin effektivliyini artırmaq imkanı ilə fərqlənir.

Kiçik müəssisələrin auditinin həyata keçirilməsi zamanı Beynəlxalq Audit Standartlarının tətbiqinin üstün cəhətləri beynəlxalq təcrübədə bir standarta şamil olunmasından, milli təcrübələrdə isə analoji standartların olmamasından ibarətdir. Buna görə də, auditorlar bütün təşkilatlar üçün (kiçik, orta və iri) ümumi olan standartları rəhbər tutmalı, kiçik müəssisələrin auditinin planlaşdırılması və həyata keçirilməsi zamanı beynəlxalq təcrübəyə, şirkətdaxili standartlara və sağlam şüura əsaslanmalıdır.

**"Azərbaycan Respublikasında Beynəlxalq Audit Standartlarının tətbiqinin müasir durumu və əsas xüsusiyyətləri"** adlanan ikinci fəsildə kiçik müəssisələrdə Beynəlxalq Audit Standartlarının Azərbaycan Respublikasının iqtisadi məkanına inteqrasiyası problemləri, Beynəlxalq Audıt Standartlarına keçid zamanı analitik-uçot sisteminin formalaşması və Daxili iqtisadi və hüquqi normaların Beynəlxalq Audıt Standartlarına uyğunlaşdırılması araşdırılmışdır.

Beynəlxalq Audit Standartlarının tətbiqi Azərbaycanda həyata keçirilən iqtisadi islahatların ayrılmaz hissəsidir. Ölkəmizin sürətli iqtisadi inkişafı və dünyaya inteqrasiyası beynəlxalq mühasibat uçotu standartlarının və beynəlxalq audit standartlarının tətbiqini zəruri etmişdir. Eyni zamanda, onların tətbiqi Azərbaycan Respublikasının audit sistemində ciddi dəyişikliklərin baş verməsini tələb edir. Onlar Beynəlxalq Audıt Standartlarının tətbiqinə dair hüquqi və normativ

əsasların daimi olaraq təkmilləşdirilməsindən və yenilənməsindən, keyfiyyətin idarə olunması sistemlərinin yaxşılaşdırılmasından, normativ-hüquqi bazanın monitorinqindən və onun Beynəlxalq Audit Standartlarının tətbiqinə uyğunlaşdırılmasından ibarətdir.

Auditorlar Palatasının məlumatlarına müvafiq olaraq məcburi auditin xüsusi çəkisi 73%, könüllü auditin xüsusi çəkisi 15% və auditor xidmətlərinin illik həcmində əlaqəli xidmətlərin təqdim olunması 12% təşkil edir. Göründüyü kimi Azərbaycanda könüllü auditin xüsusi çəkisi daha çox inkişaf etmiş ölkələrin iqtisadi göstəricilərindən fərqli olaraq, aşağı qalmaqda davam edir. Bütün bunlar auditə qarşı ictimai marağın aşağı səviyyədə olması, eləcə də, maliyyə xərclərinin zərurəti ilə əlaqədardır. Müəssisələrin rəhbərləri hər zaman müasir auditin müsbət keyfiyyətləri haqqında xəbərdar olmur. Onlardan çoxu bu prosedurun maliyyə təftişi kimi aparılmasını, bu yaxınlara qədər postsovet məkanı ölkələrində daha geniş yayılan bütün mümkün nəticələrin yoxlama yolu ilə həyata keçirildiyini təsəvvür edirlər. Bununla əlaqədar olaraq rəhbərlər və mülkiyyətçilər könülsüz surətdə auditorların xidmətlərinə müraciət edirlər. Subyekt üçün illik auditin məcburi olması prosedurlarının qaçılmazlığı zamanı onun tam mənada yerinə yetirilməsinə hər cürə mane olmağa cəhd göstərirlər. Müəssisənin fəaliyyəti haqqında natamam və ya ümumiyyətlə yanlış məlumatın təqdim olunması, auditora qarşı düşmən münasibəti və kollektivin bu əhval-ruhiyyədə köklənməsi bu cür maneələrin təzahürüdür. O fakt təəccüblüdür ki, hətta rəhbərin maliyyə hesabatının düzgünlüyü zamanı auditora müxtəlif cür təsir metodları onun tərəfindən daha tez-tez tətbiq olunur. “Razılığa gəlmək” cəhdi hər zaman könüllü xarakter daşımır. Bəzi hallarda rəhbərin auditor rəyinin nəticələrinə təsir göstərməsi kimi inadkarlığı hesabına, auditor tapşırığın yerinə yetirilməsindən imtina etməli olur. Bundan başqa, “təftiş” sovet termininin neqativ təsiri mülkiyyətçidə belə bir sual doğurur – qoyulan maliyyə vəsaitlərinin maliyyə baxımından yoxlanmasını həyata keçirmək lazımdırmı?

Ümumilikdə, Azərbaycan Respublikasında auditor və ya beynəlxalq auditor xidmətlərinin təşkilinin təkmilləşdirilməsi üçün tədbirin növbəti istiqamətlərdə aparılması zəruridir:

- könüllü auditin xüsusi çəkisinin artırılmasına və yanaşı xidmətlərin göstərilməsinə dair müvafiq tədbirlərin görülməsi;
- ölkə iqtisadiyyatının əsas istiqamətlərin sahəsində, eləcə də, neft-qaz kompleksində, turizm, informasiya texnologiyaları, kənd

təsərrüfatı, tikinti, nəqliyyat sahəsində və digər vacib sahələrdə auditin həyata keçirilməsi;

- ölkədə həyata keçirilən regional inkişaf proqramları ilə auditin təşkilinin koordinasiyası;
- audit sahəsində daha yüksək texnologiyalardan istifadə və elektron auditin tətbiq edilməsi;
- təsərrüfat subyektləri ilə auditorlar arasındakı interaktiv münasibətlərin təşkil olunması;
- müəssisənin rəsmi saytında auditor rəyi ilə birlikdə məcburi audit subyektlərinin illik maliyyə hesabatlarının yerləşdirilməsi;
- könüllü rəqabətin təminatına dair təşkilati tədbirlərin həyata keçirilməsi;
- xarici ölkələrin nümunəsinə əsasən auditor təşkilatlarının reytinqinin tərtib olunması;
- auditor rəylərinin məzmununun təkmilləşdirilməsi, onların icra olunması sistemlərinin işlənib hazırlanması və tətbiq olunması;
- etik prinsiplərin həyata keçirilməsi sisteminin hazırlanması;
- auditor xidmətlərinə dair qiymətlərin tənzimlənməsi sistemlərinin işlənib hazırlanması və tətbiq olunması;
- ərazilər və regionlar üzrə məcburi auditdən keçmək ilə əlaqədar olaraq analitik informasiya sisteminin yaradılması;
- auditə aidiyyatı olan metodik və tövsiyə materiallarının hazırlanması;
- auditin təşviqi və təbliği sahəsində, maraqlı tərəflərin və ictimaiyyətin xidmətlərinə dair cəmiyyətlərin təşkil olunması.

Azərbaycan Respublikasında Beynəlxalq Audit Standartlarının inteqrasiyasının vacib problemlərindən biri də "kadr məsələsi", yəni, auditor peşəsinə dair marağın olmamasından ibarətdir.

Digər ölkələrdən fərqli olaraq, Azərbaycanda auditor adı almaq üçün lisenziya almaq arzusunda olanların sayı həddən artıq aşağıdır (əksər ölkələrdə auditor adı almaq üçün imtahanlar çoxpilləlidir və Azərbaycanda olduğundan daha sərt şərtlər daxilində həyata keçirilir).

Şəkil 1-dən göründüyü kimi, son 6 ildə Azərbaycanda 41 nəfər fərdi şəxs və 63 təşkilat auditor lisenziyası almışdır. Onu da göstərmək lazımdır ki, lisenziya almış auditorların bir çoxu müxtəlif səbəblərdən lisenziyalarını geri qaytarmış, bir sıra təşkilatlar isə fəaliyyətlərini dayandırmışdır (Şəkil 1).




**Şəkil 1. Azərbaycan Respublikasında 2011-2016-cı illər üzrə lisenziya almış auditorların sayı**

Analitik-uçot sistemi mühasibat məlumatından ibarət olan sistemdir. Bu sistemə daxil olan mühasibat məlumatı operativ məlumatlardan ibarət olub, iqtisadi təhlilin aparılması üçün məlumatların digər növlərinin (statistik, texniki, sosial) istifadə olunmasına yol açır. Buna görə də, o, mikro və makro səviyyələrdə idarəetmə qərarlarının qəbul olunması üçün zəruri olan məlumatın bütün növlərinin toplanması, işlənib hazırlanması və qiymətləndirilməsi kimi qəbul edilir.

Analitik-uçot sistemi istənilən digər sistem kimi bir sıra funksiyaları yerinə yetirir və özünü müxtəlif aspektlərdə ifadə edərək həm xarici, həm də daxili ola bilər.

Təsərrüfat fəaliyyətinin faktları, ilk uçot sənədlərində qeydə alınan öhdəliklərin və aktivlərin dəyişiklikləri haqqında məlumatlar çıxış elementlərinin əks qütbü vasitəsilə analitik-uçot sisteminə xaricdən daxil olur. Daha sonra analitik-uçot sisteminin fəaliyyət mexanizminin təsiri altında növ dəyişkənliyinə məruz qalan və alınan məlumatın yenidən tərtib olunması baş verir. Bu prosesdə bir çox məqam analitik-uçot sisteminin (Sxem 1) daxili imkanlarından, eləcə də, məlumatın yenidən tərtib olunmasını zəifLədən və ya gücləndirən digər sistemlər ilə qarşılıqlı fəaliyyətdən asılı olur.




**Sxem 1. Analitik uçot sistemi**

Azərbaycan Respublikasının analitik-uçot sistemi, müəssisənin mühasibat hesabatında maliyyə informasiyasının açıqlanmasına aid olan və onun fəaliyyəti və maliyyə vəziyyəti barədə doğru təsəvvürü təmin edən aşağıdakı tələblərə uyğun olmalıdır:

- maliyyə hesabatının ayrı forması kimi kapitalda dəyişikliklər haqqında maliyyə hesabatının təqdim edilməsi;
- qiymət dəyişiklikləri ilə bağlı uçot və hesabatın aparılması;
- ayrı-ayrı sahibkarlar tərəfindən konsolidə edilmiş maliyyə hesabatlarının təqdim edilməsi;
- şərti hadisələr və hesabat tarixindən sonrakı hadisələrin rəsmiləşdirilməsi;
- seqment hesabatın təqdim edilməsi;
- əlaqəli tərəflər haqqında informasiyanın açıqlanması;
- bankların və digər bənzər maliyyə institutlarının maliyyə hesabatları haqqında informasiyanın açıqlanması;
- investisiya fəaliyyəti və s. rəsmiləşdirilməsi.

Beynəlxalq Audit Standartlarının tətbiqi ilə bağlı, maliyyə hesabatının elementlərinin təsnifatının və qiymətləndirilməsinin qəbul edilməsi üzrə prinsipial yanaşmalar və meyarlar xüsusi diqqət cəlb edir. Bunun nəticəsində maliyyə informasiyasının qeydiyyatı və ümumiləşdirilməsi qaydası, müəyyən edilmiş qaydadan xeyli fərqlənir. Belə ki, gəlirlərin alınması anında, onlarla pul vəsaitlərinin və ya onların

ekvivalentinin alınması faktından asılı olmayaraq (gəlirin tanınması), gəlirləri qəbul etmək zərurəti yaranmışdır. Bu zaman, növbəti hallar: məhsulun təqdim edilməsi, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi, həmçinin, həmin hesabat dövrünə aid olan göstərilən işlərin müəyyən mərhələlərinin bitməsi, sahibkarın mülkiyyətinə pul vəsaitlərinin və ya digər mülkiyyətin şərtsiz alınmasına dair hüquqi əsasın yaranması, fövqəladə hallar nəticəsində və ya cari əməliyyatlar üzrə borcların ləğv olunması nəticəsində gəlirlər üzrə öhdəliklərin, bank kreditlərinin və onların faizlərinin qaytarılması, həmçinin fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün dövlət və ya digər orqanlar tərəfindən ayrılmış məqsədli maliyyələşdirilmə vəsaitlərinin istifadəsini nəzərdə tutan öhdəliklərin azalması ilə sahibkar tərəfindən pul vəsaitlərinin və ya digər mülkiyyətin alınması nəzərdə tutan aktivlərin yüksəlməsi ilə bağlı gələcək iqtisadi mənfəətlərin artımı baş verdikdə gəlir kimi qəbul edilir.

Beynəlxalq Audıt Standartları sistemi istənilən milli qanunvericilikdən şüurlu surətdə təcrid edilmişdir. Buna görə də hər bir dövlət, öz ərazisində Beynəlxalq Audıt Standartlarının tətbiqi barədə qərar qəbul edərkən, seçim: milli auditor standartlarını Beynəlxalq Audıt Standartları əsasında yaratmaq və onları öz qanunvericilik aktlarına uyğunlaşdırmaq və ya Beynəlxalq Audıt Standartlarını qəbul etmək və milli qanunvericiliyi onlara uyğunlaşdırmaq qarşısında qalır. Azərbaycan Respublikasında Beynəlxalq Audıt Standartlarının tətbiqi haqqında qərarı nəzərə alaraq, ölkənin hüquqi və iqtisadi normalarını onlara uyğunlaşdırmaq zəruridir. Beynəlxalq Audıt Standartlarında qanunvericiliyin xüsusiyyətləri və onun iqtisadi inkişaf dövrünün səciyyəvi cəhətləri nəzərə alınmamalıdır. Bundan başqa qanunvericilikdə düzəlişlər yaradıcı prosesdir və təbii ki, bu hətta ən yaxşı ilkin mənbələrin sadəcə təqlidi yox, mövcud problemlərin inkişafını nəzərə almaqla yaxşılaşdırma cəhdləridir.

İqtisadi normaları Beynəlxalq Audıt Standartlarına uyğunlaşdırmaq məqsədilə auditin texnika və prosedurlarını təkmilləşdirmək vacibdir. Faktiki olaraq, bütün müstəqil auditor yoxlamaları auditora müəssisə - müştəri tərəfindən həyata keçirilən əməliyyat və hadisələrin yalnız bir hissəsində keçirilən yoxlama nəticələrinə görə qənaətə gəlməyə imkan verən seçmə tədqiqatlarının əsasında bazalaşır. Beynəlxalq Audıt Standartlarının tələblərinə görə, ətraflı auditə bütün həyata keçirilən əməliyyatların tam və ətraflı ekspertizası lazımdır.

Dissertasiyanın üçüncü fəsli **“Azərbaycan Respublikasının kiçik müəssisələrində Beynəlxalq Audit Standartlarının tətbiqinin elmi-praktik aspektləri”** adlanır. Burada, beynəlxalq təcrübədə kiçik müəssisələrdə Beynəlxalq Audit Standartlarının tətbiqi meyilləri və Azərbaycan Respublikasının kiçik müəssisələrində Beynəlxalq Audit Standartlarının tətbiq edilməsinin perspektiv istiqamətləri şərh edilmişdir.

Auditin müasir beynəlxalq nəzəriyyə və təcrübəsinin əsas xüsusiyyəti onun formalaşmasının rəqabət mübarizəsinə keçməsidir. Nəticə olaraq, hazırda beynəlxalq hüquqi əsaslardan qaynaqlanan audit bazası yaradılmışdır. Bundan başqa auditin təşkilati formaları işlənib hazırlanmış, eləcə də auditor fəaliyyətinin həyata keçirilməsi üçün çoxlu sayda metodik materiallar dərc edilir və daim yenilənir.

Müasir beynəlxalq audit, dünyanın bütün inkişaf etmiş ölkələrində öz hüquqi və təşkilati infrastrukturu olan peşəkar auditin ictimai İnstitutunun mövcudluğu ilə səciyyələnir. Lakin auditor fəaliyyətinin dövlət nəzarətində işin özündə verilən fərqlər mövcuddur.

Azərbaycan Respublikasında mərkəzləşmiş inzibati-komanda sistemi şəraitində formalaşan kiçik biznesin subyektlərinin idarə edilməsi təcrübəsi istehsalat həcminin inkişafı mexanizminin işlənib hazırlanmasına, məhsulun buraxılması xərclərinin azaldılmasına, məhsulun siyahısının nizamlanmasına və fəaliyyətin yeni növlərinin təşkili cəhdlərinin azaldılmasına yönəldilmişdir. Belə olan halda müəssisələrə, onların qarşılarına qoyduqları məqsəd və vəzifələrindən asılı olaraq, əvvəlcədən verilmiş daimi hesab edilən “qapalı” sistemlər kimi baxılırdı. Nəticədə, qəti əminlik formalaşırdı ki, müəssisənin fəaliyyətinin effektivliyi əməyin məhsuldarlığından və əldə olunan ehtiyatlardan səmərəli istifadə edilməsinə imkan yaradır. Belə idarəetmə sistemi gələcək iş fəaliyyətinə yönəldilmədiyindən, respublika iqtisadiyyatının müasir inkişaf mərhələsi tamamilə xoşagəlməz göstəricilərlə nəticələnə bilər.

Bununla əlaqədar, kiçik sahibkarlığın müasir inkişaf meyli üçün yeni idarəetmə modelinə keçid səciyyəvi olur. Belə idarəetmənin mahiyyəti idarəetmənin səmərəliliyindən, müəssisənin uğurunun yalnız daxili təşkilatın effektivliyindən, xərclərin azaldılmasından, istehsalatdaxili ehtiyatların aşkarlanma və mənimsənilməsindən asılı olduğu barədə ilkin əminlikdən kənarlaşır.

Beynəlxalq Audit Standartlarının tətbiqi Azərbaycan Respublika-

sında həyata keçirilən iqtisadi islahatların ayrılmaz hissəsidir və bazar iqtisadiyyatı şəraitində başa çatması nəzərdə tutulur. Eyni zamanda, onların tətbiqi Azərbaycan Respublikasının audit sistemində ciddi dəyişikliklərin baş verməsini tələb edir. Onlar Beynəlxalq Audıt Standartlarının tətbiqinə dair hüquqi və normativ əsasların daimi olaraq təkmilləşdirilməsindən və yenilənməsindən, keyfiyyətin idarə olunması sistemlərinin yaxşılaşdırılmasından və onun Beynəlxalq Audit Standartlarının tətbiqinə uyğunlaşdırılmasından ibarətdir.

Tədqiqat nəticəsində müəyyən edilən məlumatlara əsasən tərtib edilən şəkildən göründüyü kimi, Beynəlxalq Auditor Standartlarından istifadə faizinin göstəriciləri illər üzrə yüksəlmişdir (Şəkil 2).




**Şəkil 2. Beynəlxalq Audit Standartlarından istifadə**

Beynəlxalq Mühasiblər Federasiyasının üzvü kimi çıxış edən Azərbaycan Respublikasının öhdəlikləri növbəti tələbatları formalaşdırmışdır:

1. Beynəlxalq Mühasiblər Federasiyasının üzvlük tələbi (SMO) 1 - Keyfiyyətin təmin edilməsi. Məqsədi: Azərbaycanda keyfiyyətin təmin edilməsi sisteminin tətbiqi və daim təkmilləşdirilməsi;

2. SMO 2 - BMUTSŞ tərəfindən buraxılmış Peşəkar Mühasiblər üçün Beynəlxalq Təhsil Standartları və Digər sənədlər. Məqsədi: Davamlı Professional İnkişaf (DPİ) üzrə monitorinqin gücləndirilməsi;

3. BAƏSŞ tərəfindən buraxılmış SMO 3 - Beynəlxalq Audit Standartları və digər sənədlər. Məqsədi: Beynəlxalq Audit və Əminlik Standartlarına uyğunlaşma proseslərinin təkmilləşdirilməsi və dəstəklənməsi;

4. Peşəkar Mühasiblər üçün Etika Məcəlləsi SMO 4 - MBESŞ.

Məqsədi: MBESŞ-nın Etika Məcəlləsinə uyğunlaşmanı davam etdirmək üçün prosesi təkmilləşdrimək və dəstəkləmək;

5. SMO 5 - İctimai sektor üçün Beynəlxalq mühasibat uçotu standartları və İSMUBSB tərəfindən dərc edilmiş digər sənədlər. Məqsədi: Azərbaycanda İSMUBS-ın tətbiqi üçün səylərin davam etdirilməsi;

6. SMO 6 - Tədqiqat və intizam. Məqsədi: Bütün SMO 6 tələblərinə aid olan tədqiqat və intizam mexanizmini dəstəkləmək üçün səyləri davam etdirmək;

7. MBUSŞ tərəfindən qəbul edilmiş SMO 7 - Maliyyə hesabatlarının beynəlxalq standartları və digər sənədlər. Məqsədi: MHBS-lərin qəbul edilməsi və tətbiqində Maliyyə Nazirliyinin səylərinin dəstəklənməsi.

Qlobal iqtisadiyyata inteqrasiya meyilləri nəticəsində Azərbaycan Respublikasında da biznesin şəffaflığının təmin olunması, sahibkarlıq subyektlərində sivil nəzarətin həyata keçirilməsində aparılan audit təcrübi olaraq birinci yeri tutur. Belə ki, dövlət müstəqilliyi əldə olunduqdan sonra Azərbaycanda sağlam iqtisadi münasibətlər sistemi və rəqabət münasibətlərinin yaradılması üçün qloballaşma şəraitinə uyğunlaşan iqtisadiyyatın formalaşmasına və mülkiyyətin müxtəlif formalarına əsaslanan yeni inkişaf modeli yaradılmışdır. Lakin Azərbaycan Respublikasının timsalında qlobal meyillərin formalaşmasının yubandığı, ümumi iqtisadi münasibətlər sisteminin inkişaf tempindən geri qalan sahələr də mövcuddur. Bu sahələrdən biri də Azərbaycan Respublikasında biznesin aparılmasının şəffaflığına, hesabat-məlumat sisteminin fərqlənməsinə şərait yaradan audit hesabatlılığıdır ki, bunun da əsasında Beynəlxalq Audit Standartlarının tətbiqi məsələləri dayanır.

Hər il öz fəaliyyətinin formasında, coğrafiyasında yeniliklər edən Azərbaycan biznes məkanı, investisiya, maliyyə və təsərrüfat əməliyyatları həyata keçirməklə dünya iqtisadiyyatına daha sıx inteqrasiya olunmaqdadır. Lakin yüksək səviyyədə hesabatlılığın tam tətbiq olunmasının mövcudluğu səbəbindən iqtisadiyyatımız bir sıra problemlərlə qarşılaşır.

2015-ci ildən dünyada neft qiymətlərinin kəskin düşməsi nəticəsində ölkəmizdə qeyri neft sektorunun inkişafını prioritetə çevirdi. Unutmamalıyıq ki, ölkəmizdə kiçik müəssisələrin əsasən qeyri-neft sektorunda fəaliyyət göstərməsi həmin müəssisələrin böhrandan

təsirlənərək maliyyə kanallarına çıxışın zəifləməsi də sahəyə əlavə müdaxiləni zərurətə çevirdi. Ona görə də kiçik müəssisələrin dünya bazarına inteqrasiya olunması məsələləri xüsusi aktuallıq kəsb etməyə başladı. İnteqrasiya prosesinin geniş spektrli olması isə bu müəssisələrin gələcək uğurunun əsasıdır. Yəni kiçik müəssisələrin potensialına uyğun olaraq daxili ehtiyacların maksimum ödənilməsi, idxalı əvəzetmə, ixracın şaxələndirilməsi istiqamətindəki fəaliyyəti üçün yalnız yerli investisiya mənbələri və yerli sahibkarlıq yetərli olmadığı üçün cəlbedici sahələrə xarici investorların cəlb olunması ciddi hesabatlılıqla müşayiət olunan məlumat-nəzarət sisteminin mövcudluğunu tələb edir. Eyni maliyyə vəziyyətinin Milli və Beynəlxalq hesabatlardakı fərqli interpretasiyası xarici kapitalın iqtisadiyyata cəlb edilməsini yubadır, investorları, xarici sahibkarları milli iqtisadiyyatımıza sərmayə qoymaqdan soyudur, bütün bunlar isə inteqrasiya prosesinin hərtərəfli, yəni təsərrüfat potensialımızın bütün istiqamətləri üzrə səmərəli inteqrasiyanı ləngidir.

Bu proseslərin arzu olunan istiqamətə sürətli hərəkətini, inteqrasiya proseslərinin hərtərəfliliyini, beynəlxalq və milli audit hesabatlarındakı fərqli meylləri aradan qaldıraraq ümumi iqtisadi inkişafın sürətlənməsini təmin etmək istiqamətində kiçik müəssisələrdə Beynəlxalq Audit Standartlarının tətbiqinə həsr olunmuş elmi tədqiqat içində ümumiləşdirərək müvafiq tövsiyə və təkliflər verilmişdir.

İşin sonunda üç fəsildə əhatə edilən məsələlərdən nəticə çıxarılaraq "Kiçik müəssisələrdə Beynəlxalq Audit Standartlarının tətbiqi"ni gələcəkdə təkmilləşdirib respublikanın müəssisələrinin təcrübəsində istifadə edilməsini təmin etmək üçün 8 (səkkiz) əsaslandırılmış təklif verilmişdir.

Dissertasiyanın əsas müddəaları müəllif tərəfindən dərc olunmuş aşağıdakı elmi məqalə və tezislərdə öz əksini tapmışdır:

1. Təşkilatlarda daxili auditin təşkili və onun beynəlxalq standartlara uyğunlaşdırılması. "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi" mövzusunda Beynəlxalq elmi-praktiki konfrans materialları, Bakı, 27-28 iyun 2012-ci il, s.842-845.
2. Maliyyə hesabatlarının təhrif olunmasının müəyyən edilməsində analitik prosedurlarından istifadə. "Azərittifaq" Azərbaycan Kooperasiya Universiteti, "Kooperasiya" elmi-praktiki jurnalı, № 1 (32), Bakı-2014, s.57-62.

3. Роль и значение Международных стандартов аудита в экономическом развитии Азербайджанской Республики. Международный журнал «Экономика и предпринимательство», № 5 (ч. 2), Москва-2015, с.148-150.

4. Применение международного опыта в процессе внедрения Международных стандартов аудита на малых предприятиях Азербайджанской Республики. II Международная научно-практическая конференция «Управленческие технологии и модели модернизационных процессов в российской экономике: история и современность», Сборник научных статей, 10 сентября, Курск-2015, с.5-9.

5. Azərbaycan Respublikasının beynəlxalq audit standartlarının inteqrasiya problemləri və həlli yolları. "Azərittifaq" Azərbaycan Kooperasiya Universiteti, "Kooperasiya" elmi-praktiki jurnalı, № 4 (39), Bakı-2015, s.176-181.

6. Azərbaycan Respublikasının kiçik müəssisələrində Beynəlxalq Audit Standartlarının tətbiqi mexanizmi. ARƏƏSMN, Əmək və sosial problemlər üzrə elmi-tədqiqat və tədris mərkəzi (Elmi əsərlər toplusu), № 2 (16), Bakı-2015, s.90-95.

7. Daxili iqtisadi və hüquqi normaların beynəlxalq audit standartlarına uyğunlaşdırılması problemləri. AMEA-nın İqtisadiyyat İnstitutu, "Elmi əsərlər toplusu", № 6, Bakı-2016, s.215-219.

8. Beynəlxalq Audit Standartlarının şəffaf biznes mühitinin təmin olunmasında rolu. AMEA-nın İqtisadiyyat İnstitutu, "Elmi əsərlər toplusu", № 4, Bakı-2017, s.138-142.

**Камаля Ягуб гызы Агасиева**

**Применение Международных Стандартов Аудита при аудите малых предприятий Азербайджанской Республики**

**Резюме**

В диссертации исследованы основные цели развития аудита Азербайджанской Республики в обеспечении дальнейшего развития ревизионной службы, повышение рынка аудиторских услуг, защита интересов государства, хозяйствующих субъектов и аудиторов, совершенствование нормативно-правовых действий в сфере аудита в соответствии с международным опытом, предоставление аудиторских услуг в соответствии с требованиями международных стандартов аудита (МСА), а также усиление роли и важности аудита в экономической жизни страны, обеспечение повышения роли аудита и отчетности аудиторов, чтобы обеспечить прозрачность и борьбу с коррупцией в Азербайджанской Республике.

В первой главе «Сущность Международных аудиторских стандартов и значение их применения в экономических реалиях Азербайджанской Республики» изучены методология и экономический механизм внедрения Международных Стандартов Аудита на малых предприятиях, международный опыт внедрения Международных Стандартов Аудита на малых предприятиях, а также роль и значение Международных Стандартов Аудита в обеспечении прозрачности ведения бизнеса в Азербайджанской Республике.

Во второй главе работы под названием «Современное положение и особенности применения Международных Стандартов Аудита в Азербайджанской Республике» проанализированы проблемы интеграции Международных Стандартов Аудита в экономическое пространство Азербайджанской Республики, формирование учётно-аналитической системы при переходе на Международные Стандарты Аудита и приведение внутренних экономических и правовых норм в соответствие к Международным Стандартам Аудита.

В третьей главе исследования «Научно-практические аспекты внедрения Международных Стандартов Аудита на малых предприятиях Азербайджанской Республики» показаны пути решения проблем во внедрении Международных Стандартов Аудита на малых предприятиях Азербайджанской Республики на примере международного опыта, в том числеуказаны перспективы менеджмента малых предприятий Азербайджанской Республики при применении Международных Стандартов Аудита.

В заключительной части кратко изложены обобщения, предложения и рекомендации автора, полученные в результате исследования.

**Kamala Y. Agasiyeva**

**Using International Standards on Auditing in Small-Sized Entities within the Republic of Azerbaijan.**

**Summary**

The thesis deals with the main objectives of the audit development within the Republic of Azerbaijan in ensuring further development of audit service, enhancing a market of audit services, protection of interests of the state, businesses and auditors, improvement of the regulatory and legal acts in the field of audit in accordance with international practices, provision of audit services in accordance with the requirements of International Standards on Auditing (ISAs), as well as the strengthening of the role and importance of audit in the economic life of the country, ensuring the rise of audit and auditors reporting aimed to ensuring transparency and anticorruption efforts in the Republic of Azerbaijan.

In the first chapter "The essence of International standards of auditing and the importance of their application in the economic realities of the Republic of Azerbaijan", the methodology and economic mechanism for the introduction of International Standards of Auditing in small enterprises, international experience in the implementation of International Standards of Auditing in small enterprises, and the role and significance of the International Standards of Auditing in ensuring transparency of business in the Republic of Azerbaijan.

The second chapter of the work titled "Current Situation and Specifics of Application of International Standards of Auditing in the Republic of Azerbaijan" analyzes the problems of integration of the International Standards of Auditing in the economic space of the Republic of Azerbaijan, the formation of the accounting and analytical system in the transition to the International Standards of Auditing and bringing domestic economic and legal norms into compliance with the International Standards of Auditing.

The third Chapter of the study is titled Scientific and Practical Aspects of the Implementation of International Standards on Auditing in Small-Sized Entities of the Republic of Azerbaijan. In this chapter the ways of solving problems during the implementation of International Standards on Auditing in small-sized entities of the Republic of Azerbaijan are shown using international experience as an example, including indication of the perspectives for management of small-sized entities of the Republic of Azerbaijan in applying International Standards on Auditing

Concluding part summarizes the general conclusions, suggestions and recommendations of the author resulting from the research.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**АГАСИЕВА КАМАЛЯ ЯГУБ гызы**

# ПРИМЕНЕНИЕ МЕЖДУНАРОДНЫХ СТАНДАРТОВ АУДИТА ПРИ АУДИТЕ МАЛЫХ ПРЕДПРИЯТИЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5303.01 – «Бухгалтерский учет»**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание научной степени
доктора философии по экономике

**БАКУ - 2018**